*Babaxanova Nigar. Qədim əlyazma və digər materialların beynəlxalq və milli təqdimatında ekspozisiya fəaliyyəti //Elmi əsərlər,2022,1(14),yanvar-iyun,s.70-75.*

**MUZEYŞÜNASLIQ**

UOT: 069.014; 069.533; 069.295

**Nigar Babaxanova,**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.,26*
e-mail: nbabaxanova@gmail.com

# QƏDİM ƏLYAZMA VƏ DİGƏR MATERİALLARIN BEYNƏLXALQ VƏ MİLLİ TƏQDİMATINDA EKSPOZİSİYA FƏALİYYƏTİ

**Açar sözlər:** *Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, qədim əlyazmalar, elmi ekspozisiya, milli təqdimat, beynəlxalq təqdimat.*

**Giriş.** *AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu çoxşaxəli fəaliyyət istiqamətləri ilə seçilən müəssisələrdəndir. İnstitutun kitabxana-fond (çoxəsrlik yazılı abidələrin saxlanc yeri kimi), tədqiqat-nəşr, təhsil (magistratura, doktorantura səviyyəsində), bərpa-konservasiya mərkəzi funksiyaları ilə yanaşı, sosial-mədəni, başqa sözlə muzey-təbliğat funksiyası da vardır. İnstitutun muzey-təbliğat funksiyası özünü aşağıdakı fəaliyyətlərin həyata keçirilməsində büruzə verir:*

1. *Azərbaycanın qədim əlyazma və kitab irsinin müxtəlif form-faktorlarda və informasiya daşıyıcılarında tanıdılması və təbliği;*
2. *Tematik və yubiley sərgiləri, guşələr vasitəsilə görkəmli şəxslərin həyat və yaradıcılığının təbliği;*
3. *Ənənəvi sənətkarlıq nümunələrinin, o cümlədən kalliqrafiya, ağac üzərində oyma, miniatür, təzhib-cildləmə, əbru nümunələrinin hazırlanması və təbliği;*
4. *Azərbaycanın tarixi memarlığının təbliği (İnstitutun binası timsalında)*

*İnstitut yuxarıda qeyd olunmuş bütün istiqamətlər üzrə həm yerli, həm də xarici ziyarətçilərə muzey xidməti göstərir. Birinci istiqamət üzrə həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda fəaliyyət aparmaq olur. Düzdür, İnstitut Azərbaycanın qədim əlyazma və kitab irsini əsasən tədqiqat-nəşr funksiyası vasitəsilə təbliğ edir: qədim əlyazma və əski çap kitablarının araşdırılması nəticəsində monoqrafiyalar, transliterasiyalar, tərcümələr, kataloqlar meydana gəlir, yerli və xarici kitabxanalara, kitab sərgilərinə göndərilir, geniş elmi ictimaiyyətin ixtiyarına verilir. Bununla belə, milli irsin təbliğatı məsələsində statik və səyyar muzeyçiliyin də payı az deyildir.*

**Əlyazmalar İnstitutunun yerli və beynəlxalq ekspozisiya fəaliyyəti.** Qədim əlyazmaların yerli və beynəlxalq təqdimatı işində elmi, bədii-estetik prinsiplərə əsaslanan ekspozisiyanın böyük rolu vardır. A.Mansurov, B.Zavodski, N.Vertinski, M.Qnedovski və başqa tanınmış muzeyşünasların yekdil fikrincə, *"ekspozisiya – muzeyin danışdığı dildir"*. Əvvəllər "ekspozisiya" anlayışı mənaca "sərgi"dən fərqlənməsə də, illər ötdükcə, terminoloji-funksional diferensiasiya artmağa başladı və "ekspozisiya" dedikdə, eksponatların daimi, "sərgi" dedikdə isə, müvəqqəti nümayişi başa düşülməyə başlandı. Müasir dövrdə ekspozisiya muzey kommunikasiyasının ən başlıca formalarından biri hesab olunur və Əlyazmalar İnstitutunun sosial-mədəni fəaliyyətində bu məqama xüsusi diqqət yetirilir.

Hazırda İnstitutun elmi konsepsiya və çağdaş bədii-estetik prinsiplər üzrə qurulmuş

ekspozisiyası bir-birinə bitişik 2 otaqda – iri zal və otaqda – yerləşir. Ekspozisiya bu otaqlara 1982-ci ildə köçürülmüşdür. O vaxtadək eksponatlar İnstitutun nisbətən kiçik, başqa otaqlarında nümayiş olunmuşdur. 182 $m^2$-lik hazırkı ekspozisiya zalı Əlyazmalar İnstitutunun binasının xüsusi tarixi əhəmiyyətə malik hissəsində – Azərbaycan Cümhuriyyəti parlamentinin ilk iclasının (7 dekabr 1918-ci il) keçirildiyi yerdə bərqərar edilmişdir. İri zala bitişik giriş otağında (41 $m^2$) isə İnstitut binasının tikilməsinin təşəbbüskarı, maddi dəstəkçisi olmuş görkəmli Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin xatirə guşəsi qurulmuşdur. Burada Tağıyevin bioqrafiyasını əks etdirən fotostendlər, məlumat lövhələri, maarifpərvər Bakı milyonçusunun portreti (müəllif Fəxrəddin Əli), imzası, dəyərli fikirləri ziyarətçilərin diqqətinə təqdim olunur. Qonaqlar Tağıyev guşəsində Şərqin ilk qızlar məktəbində (1901-ci ildə İnstitutun binası məhz bu məktəb üçün tikilmiş, Tağıyev guşəsi isə 2021-ci ildə həmin məktəbin 120 illik yubileyi münasibətilə yaradılmışdır) şagirdlərin geyindiyi nümunəvi geyim formasına tamaşa edə, elektron informasiya köşkündə seçilmiş qədim əlyazmalarla tanış ola, xatirə kitabına təəssüratlarını yaza bilirlər.

Əlyazmalar İnstitutunun vahid əşya-məkan sisteminə uyğunlaşdırılmış iri ekspozisiya zalında taxta-şüşə vitrinlərdə 40-dan artıq nəfis əlyazmanın birsəhifəlik maket-mulyajı nümayiş olunur. Mulyajlarda Nizami Gəncəvinin "İqbalnamə"sinin, Məhəmməd Füzulinin türkcə "Divan"nın, Mirzə Adıgözəl bəyin "Tarixe-Qarabağ"nın, Mahmud Şəbüstərinin "Gülşəni-raz"ının, Əbu Əli ibn Sinanın "Əl-qanun fit-tibb"inin, Rüstəm Cürcaninin "Zəxireyi-Nizamşahi"nin, Əbülqasim Zəhravinin "Əl-məqalətus-sələsun"nun, İsmayıl Bəy Nakamın "Divan"ının, Əmir Əlişir Nəvainin "Divan"nın, Saib Təbrizinin "Divan"nın, Xacə Nəsirəddin Tusinin "Övsafül - əşraf"ının və s. əlyazmaların müxtəlif səhifələri əks etdirilmişdir. Ekspozisiyadakı bütün mulyajlar dolğun yardımçı materiallarla (Azərbaycan və ingilisdilli aydınlaşdırıcı mətnlər, eksponatlar haqqında məlumatlar) müşayiət olunmuşdur.

Məlumatlılığı artırmaq məqsədilə İnstitutun əməkdaşları tərəfindən ziyarətçilər üçün 3 dildə (Azərbaycan, ingilis və rus dillərində) canlı ekskursiyalar aparılır. Gələcəkdə daha 3 dildə (ərəb, fars və alman) audio-ekskursiyaların aparılması da nəzərdə tutulur.

Zalda İnstitutun ən qiymətli incilərindən sayılan, "Dünya yaddaşı" reyestrinə (UNESCO) daxil edilmiş 4 unikal əlyazma haqqında Azərbaycan və ingilis dillərində mobil stendlər, ağac üzərində oyma nümunələri (müəllif Seyfəddin Mənsimoğlu) də daimi əsasda nümayiş etdirilir. İl boyu ekspozisiya zalında müvəqqəti guşələr, tematik və yubiley sərgiləri vasitəsilə görkəmli şəxslərin həyat və yaradıcılığı təbliğ olunur, Respublika əhəmiyyətli başqa əlamətdar hadisələr və tarixlərlə bağlı materiallar sərgilənir. Bundan başqa, zaman-zaman bu zalda İnstitutun yaradıcı əməkdaşlarına məxsus miniatürlər, rəsm sərgiləri, təzhib-cildləmə, kalliqrafiya, əbru nümunələri ziyarətçilərə təqdim olunur. Amma sözsüz ki, İnstitutdakı ekspozisiyanın başlıca məqsədi qədim əlyazmalar vasitəsilə Azərbaycan əlyazmaçılıq mədəniyyətinin, tarixinin, ədəbiyyatının və bütövlükdə elminin geniş mənada təbliğidir. Onu da qeyd etmək lazımdır ki, təbliğat prosesi zamanı qədim əlyazmalar təkcə mulyaj və mobil stendlər vasitəsilə deyil, orijinalda da nümayiş etdirilir. Doğrudur, yazılı artefaktlardan fərqli olaraq, perqament və ya kağız əsaslı əlyazma abidələrini orijinal eksponat kimi deyil, məhz maket şəklində sərgiləmək daha məqsədəuyğundur. Lakin bəzən əlyazmaların faksimile nümunələrini, çox az hallarda isə orijinalını ekspozisiya zalına gətirərək, təhlükəsizlik və gigiyena qaydalarına əməl etməklə yerli və əcnəbi qonaqlara nümayiş etdirmək zərurəti də yaranır. Məsələn, son illərdə İnstitutun və AMEA Rəyasət heyətinin UNESKO, İSESKO, TÜRKSOY kimi beynəlxalq təşkilatlarla müştərək tədbirlərində ziyarətçilərin daha dərin elmi-mədəni maraqları nəzərə

alınaraq, bir neçə dəfə orijinal əlyazma ekspozisiyası təcrübəsindən istifadə edilmişdir. Bu addımlar Azərbaycan xəttatlığının, miniatür və cildçilik sənətinin əsli, nümunəvi örnəklərini daha qabarıq şəkildə beynəlxalq auditoriyaya təqdim etmək məqsədilə atılmışdır.

Əlyazmalar İnstitutunun ekspozisiya fəaliyyətində qədim əlyazmaları faksimile və ya mobil stendlər vasitəsilə xarici ölkələrdə sərgiləmək təcrübəsi də yer alır. Belə ki, beynəlxalq “Milan turizm sərgisi”ndə, Parisdə, Londonda, Daşkənddə və s. baş tutmuş müxtəlif səpkili sərgilərdə, beynəlxalq tədbirlərdə Azərbaycan mədəniyyəti və tarixinin zənginliyini, mədəni irs nümunələrinin qorunması sahəsindəki nailiyyətləri, mədəni-tarixi turizm imkanlarının genişliyini nəzərə çarpdırmaq məqsədilə qədim əlyazmaların maket, mobil stend və elektron nüsxə şəklində nümayişi həyata keçirilmişdir.

İnstitut qədim əlyazmaları və həmin əlyazmalar əsasında aparılmış tədqiqatların nəticələrini ictimailəşdirmək üçün təkcə haqqında bəhs olunan zaldaxili ekspozisiyadan istifadə etmir. Eyni zamanda, İnstitutun dəhlizində müasir nəşrlərin daim yenilənən ekspozisiyası, elmi nailiyyətlərin audiovizual təqdimatı (monitor vasitəsilə) həyata keçirilir.

Qeyd olunduğu kimi, İnstitutun daimi ekspozisiyasının yerləşdiyi məkan tarixiliyi ilə də diqqəti cəlb edir. İstər yerli, istərsə də xarici qonaqlar üçün Azərbaycanın qədim əlyazma irsi ilə tanışlıqla yanaşı, Şərqdə ilk qızlar məktəbini, Azərbaycan Cümhuriyyəti Parlamentinin ilk binasını ziyarət etmək də xüsusi əhəmiyyət daşıyır. Bu, təkcə qədim əlyazmalar vasitəsilə deyil, eyni zamanda, həmin əlyazmaların sərgiləndiyi məkanın atmosferi və arxitekturası vasitəsilə də keçmişə körpü salmaq, tarixin dərinliklərinə xəyali ekskursiya etməkdir.Təsadüfi deyil ki, Azərbaycan memarlığının milli-romantik üslubunda tikilmiş bu binanı Ümummilli lider Heydər Əliyev, dünyaca şöhrətli türk şairi Nazim Hikmət, xalq artistləri Müslüm Maqomayev, Tofiq Quliyev, Əfrasiyab Bədəlbəyli, eləcə də Erix Fayql, Pol Teylor, İosif Braginski kimi dünyaca tanınmış elm xadimləri, UNESCO-nun baş katibi Amadu Mahtar M’Bou, İslam ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İSESCO) baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycri, Avstriyanın Xarici İşlər naziri Peter Yankoviç, İran İslam Respublikasının Prezidenti Əkbər Haşimi Rəfsəncani və neçə-neçə başqa dəyərli dövlət, mədəniyyət, elm xadimləri ziyarət etmişdir. [1]

Bugün ekspozisiya zalı öz tarixi əhəmiyyəti ilə İnstitutunun milli və beynəlxalq elmi kommunikasiyalarında da ön sıraya çıxır: kütləvi informasiya vasitələri nümayəndələri ilə görüşlər zamanı bu salon və onun ekspozisiyası əvəzolunmaz anturaj rolunu oynayır; İnstitutun bir çox beynəlxalq əməkdaşlıq müqavilələri burada bağlanılır; nüfuzlu xarici qonaqlar, dövlət və elm xadimləri məhz ekspozisiya zalında qarşılanır və s.

Belə anlaşılır ki, tarixilik amili ekspozisiyanın və onun məkanının təqdimatında nə qədər əhəmiyyətlidirsə, qədim əlyazma eksponatlarının məqsədyönlü, elmi cəhətdən əsaslandırılmış, kompozisiya cəhətdən tamamlanmış, texniki və bədii həllini tapmış şəkildə nümayişi də bir o qədər əhəmiyyətlidir. Çünki belə bir tarixi atmosferdə əlyazmaları və digər ekspozisiya materiallarını vahid, tamamlayıcı konsepsiya əsasında yerləşdirməmək kulturoloji vəhdəti poza bilər.

Buradan belə bir qənaətə gəlirik ki, bu və ya digər ekspozisiya məkanı tarixi binada yerləşdiyi halda, ziyarətçilərə təkcə eksponatlar vasitəsilə maarifləndirici təsir göstərmək kifayət etmir. Bu halda əşya-məkan kompozisiyası elə qurulmalıdır ki, istər yerli, istərsə də əcnəbi ziyarətçilərə emosional cəhətdən də təsir etmək mümkün olsun.

M.Y.Kaulen, O.Y.Çerkayeva, İ.V.Çuvilov kimi mütəxəssislərin bu xüsusda maraqlı yanaşmaları [2-3] mövcuddur. Onların fikrincə, muzeylər “yaddaş” institutları kimi, insanların milli identifikasiya mexanizminə güclü təsir imkanına malik olur, sosial-mədəni

mühitin vahidliyini qoruyur. Fikrimizcə, əgər ekspozisiyanın təkcə mikromühiti (daxili) deyil, makromühiti (yerləşdiyi məkan) də ziyarətçinin diqqətini cəlb edirsə, bu halda muzeyin ümumbəşəri və milli tərbiyəvi potensialı daha da güclənir. M.S.Kaulen və b.-ları bu xüsusda belə yazır: *"...müxtəlif dövrlərin faktoqrafik (əşyayi) materiallar vasitəsilə təqdimatı, muzeydə tarixi mühitin mümkün rekonstruksiyası və s. ekspozisiyanın yalnız informativliyini təmin etmir, eyni zamanda, ziyarətçiyə güclü emosional təsir göstərir, cəmiyyətin sosial yaddaşını formalaşdırır, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsinə rəvac verir".* [2, s.2]

Əlyazmalar İnstitutu qədim əlyazmaların yerli və beynəlxalq təqdimatı zamanı ekspozisiya fəaliyyətini qeyd olunduğu kimi, çoxistiqamətli şəkildə qurmaqla, Azərbaycanın qədim yazılı irsinin həm elmi, həm tarixi, həm sosial-mədəni, həm də ümumbəşəri məziyyətlərini önə çıxarmağa və təbliğ etməyə nail olur. Başqa sözlə, qədim əlyazmaların düzgün yerinə yetirilmiş ekspozisiyası məkan və auditoriyaya nisbətdə müxtəlif təsirlərə malik olsa belə, yalnız bir məqsədə xidmət edir: Azərbaycan xalqının milli-mənəvi, mədəni zənginliyini dünyaya çatdırmaq.

**Diskussiya.** İlk baxışdan elə düşünmək olar ki, haqqında danışılan məqsədə çatmaq üçün ekspozisiyanın məzmunca əhəmiyyətliliyi, dərinliyi və (və ya) yerləşdiyi məkanın tarixiliyi kifayətedici amildir. Lakin Əlyazmalar İnstitutunun bu sahədəki çoxillik təcrübəsini öyrənib tədqiq etdikcə və alınan nəticələri ümumiləşdirdikcə, belə məlum olur ki, bu amillərlə yanaşı, ekspozisiya quruculuğunda təşkilati metodlardan düzgün istifadə də olduqca vacib məsələdir. Əlyazmalar İnstitutunun muzey funksiyasının özünəməxsusluğu ondan ibarətdir ki, buradakı ekspoşərait digər muzeylərdəkindən fərqli olaraq, ekspozisiya quruculuğunun bir neçə metodundan (kolleksiya, ansambl, illüstrativ-tematik) eyni anda istifadə etməyə imkan verir. Bunun nəticəsidir ki, İnstitut öz fəaliyyətində ekspozisiyanın həm ənənəvi, həm də yeni tiplərindən və növlərindən yararlana bilir. Lakin onu da nəzərə almaq lazımdır ki, nümunəvi ekspozisiya modelinin yaradılması texnologiyasına müxtəlif elmi baxışlar [4-6] mövcuddur. Bəzi mütəxəssislər [4-5] ekspozisiya quruculuğuna münasibətdə qarışıq metodların tətbiqini mümkün hesab etdiyi halda, başqa mütəxəssislər əksinə, metod seçimində konkret olaraq, "ənənəvi" (təkyönlü) və ya "qeyri-ənənəvi" (çoxyönlü) yanaşmanın tərəfdarıdır [6].

Əlyazmalar İnstitutunun illərdən bəri formalaşmış ekspozisiya-sərgi ənənəsi və müasir dövrdə bu sahədə əldə etdiyimiz təcrübələr ekspozisiya yaradıcılığında sinkretik, çoxsaylı metodlardan istifadə etməyimizə obyektiv şərait yaradır.

İnstitut ekspozisiya quruculuğunun tipoloji təsnifatına uyğun olaraq:

1. *Tematik sərgilərdən* istifadə edir. Bu zaman eksponatlar müəyyən süjet xətti gözlənilməklə, müxtəlif formalarda nümayiş olunur;
2. *Fond sərgilərindən* istifadə edir. Belə sərgilərdə yerli və əcnəbi ziyarətçilərə fonddakı əlyazmaların orijinalı, görkəmli şəxsiyyətlərin şəxsi arxiv materiallarının əsli, nadir kolleksiyalar və s. nümayiş etdirilir;
3. *Hesabat sərgilərindən* istifadə edir. Belə sərgilərdə zədələnmiş əlyazmaların bərpadan, təmirdən sonrakı vəziyyəti diqqətə çatdırılır və ya fondun komplektləşdirmə nəticələri, yeni daxilolmalar nümayiş etdirilir.

Ekspozisiya quruculuğunun növ təsnifatına gəlincə isə İnstitut aşağıdakı istiqamətlərdə muzey fəaliyyəti göstərir:

- **Tematik ekspozisiya-sərgi növündən istifadə edir**. Bu zaman, diqqətə çatdırılması vacib olan mövzu və ya ekspozisiya konsepsiyası əsli materiallarla yanaşı, köməkçi materiallardan, mulyaj, maket və stendlərdən istifadə olunmaqla açılır. Məsələn,

İnstitutda Azərbaycanın məşhur şairələrinin əlyazmalarının nümayiş olunduğu sərgi buna misal olar bilər.

**- Sistematik ekspozisiyadan istifadə edir.** Belə ekspozisiyada eynitipli eksponatlar, sistematik kolleksiyalar nümayiş olunur. İnstitutda vaxtaşırı təşkil olunan qədim Quran əlyazmaları sərgisi buna misaldır.

**- Ansambl növlü ekspozisiyadan istifadə edir.** Bu zaman müxtəlif tipli eksponatlar bir məkanda sərgilənir. İnstitutun ekspozisiya zalında qədim əlyazma mulyajlarının, fotostendlərin, geyim formasının, xətt-oyma sənəti nümunələrinin, elektron informasiya köşkünün bir yerdə nümayişi buna misal ola bilər.

**Nəticə.** *Əlyazmalar İnstitutunun qədim əlyazma və digər materialların beynəlxalq və yerli təqdimatı sahəsindəki fəaliyyəti onun əsas sosial-mədəni funksiyalarından biridir. Bu fəaliyyətin tarixi baxımdan öyrənilməsi, tədqiqi, əldə olunmuş təcrübələrin ümumiləşdirilməsi nəticəsində belə bir qənaət hasil edirik ki, geniş ekspozisiya spektrinə malik olması İnstituta təbliğat üçün əlavə üstünlüklər verir, xalqımızın milli-mənəvi, mədəni zənginliyini, o cümlədən qədim əlyazmaçılıq, xəttatlıq, kitabçılıq mədəniyyətini dünyaya çıxarmağa şərait yaradır.*

*Əlyazmalar İnstitutunun təkcə elmi tədqiqat müəssisəsi və ya əlyazma xəzinəsi kimi deyil, muzey kimi də nəzərdən keçirilməsi və onun muzeoloji fəaliyyətinin müasir elmi çağırışlar kontekstində araşdırılması, qədim yazılı abidələrin və digər qiymətli materialların ekspozisiya həllində üstün və çatışmayan cəhətlərin aşkarlaması, bu sahədə perspektivlərin müəyyənləşdirilməsi böyük əhəmiyyətə malikdir. İnstitutun ekspozisiya fəaliyyətini dərindən tədqiq etmədən bu xəzinənin elmə, ədəbiyyata, ictimai yaddaşa, milli təfəkkürə, mədəniyyətin beynəlxalq təbliğinə təsir imkanlarını sonadək anlamaq mümkün deyil. Bu isə o deməkdir ki, Əlyazmalar İnstitutunun təbliğat, maarifləndirmə, didaktika, kommunikasiya imkanlarının təzahür forması olan ekspozisiya fəaliyyəti daim elmin yeni nailiyyətlərindən bəhrələnməli, yeni metod və texnologiyalarla təchiz olunmalı, eyni zamanda, uzun illərdən bəri formalaşmış sərgi-təqdimat ənənəsinə söykənməlidir.*

## Ədəbiyyat:


1. Babaxanova N. Yazdım ki, izim qala... – Bakı: Elm və təhsil, 2017. – 132 s.
2. Каулен М.Е., Черкаева О.Е., Чувилова И.В. Роль музеев в формировании исторического сознания // Культурологический журнал. - 2011/4 (6).- С.1-4.
3. Каулен М.Е. Музейные экспозиции и выставки // Музейное дело России. – 3-е изд., испр. и доп. – М.: ВК, 2010. – С. 307–364.
4. Morten A. Skydsgaard, Hanne Møller Andersen & Heather King (2016) Designing museum exhibits that facilitate visitor reflection and discussion, Museum Management and Curatorship, 31:1, 48-68
5. Андреева И.В. 2019. Метод музейно-экспозиционного проектирования как основание классификации музейных экспозиций // Вопросы музеологии. - 10 (1). – С.16–28.
6. Димогло М.В. Современность и традиционность музейного содержания. [Электронный ресурс]. – Режим доступа: http://book.uraic.ru/project/conf/txt/005/archvuz18_pril/34/template_article-ar=K01-20-k12.htm

***Нигяр Бабаханова***

## ЭКСПОЗИЦИОННАЯ ДЕЯТЕЛЬНОСТЬ В МЕЖДУНАРОДНОЙ И НАЦИОНАЛЬНОЙ ПРЕЗЕНТАЦИИ ДРЕВНИХ РУКОПИСЕЙ И ДРУГИХ МАТЕРИАЛОВ

**Резюме**

В статье исследуются научно-теоретические аспекты многолетней экспозиционной деятельности Института рукописей имени Мухаммеда Физули НАНА; анализируется накопленный опыт в области национальной и международной презентации древних рукописей и других материалов; обобщаются полученные результаты.

**Ключевые слова:** *Институт рукописей имени Мухаммеда Физули, научная экспозиция, древние рукописи, национальная презентация, международная презентация.*

***Nigar Babakhanova***

## EXPOSITION ACTIVITY IN THE INTERNATIONAL AND NATIONAL PRESENTATION OF ANCIENT MANUSCRIPTS AND OTHER MATERIALS

**Summary**

The article examines the scientific and theoretical aspects of the long-term exposition and exhibition activity of the Institute of Manuscripts named after Muhammad Fizuli of ANAS; analyzes the experience in the field of national and international presentation of ancient manuscripts and other materials; and the results obtained are summarized.

**Keywords:** *Institute of Manuscripts named after Muhammad Fizuli, scientific exposition, ancient manuscripts, national presentation, international presentation.*

*Redaksiyaya daxil olma tarixi: 18.02.2022*
*Çapa qəbul olunma tarixi: 10.03.2022*

*Filologiya elmləri doktoru, professor Xatirə Bəşirli tərəfindən çapa tövsiyə olunmuşdur.*